# Çin və Aİ ilə sıx əlaqələr ölkəmizin artan nüfuzunu nümayiş etdirir



**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə telefon söhbəti olmuşdur. Hesab edirəm ki, eyni gündə iki qlobal güc mərkəzinin Azərbaycan Prezidenti ilə təması ölkəmizin regionda liderliyinə və qlobal siyasətdə əhəmiyyətinə verilən yüksək qiymətin təzahürüdür.**

Fəxrlə qeyd etmək lazımdır ki, son illər Azərbaycan 500 milyard dollar həcmində ticarət dövriyyəsi olan Çinlə Avropa İttifaqı (Aİ) arasında mühüm nəqliyyat-loqistika mərkəzlərindən birinə çevrilmişdir. Fakt budur ki, iki qlobal güc arasında əlaqələrin inkişafı üçün ölkəmizin əhəmiyyəti çox artmışdır və sivil dünya bunun fərqindədir.

Azərbaycan dövlətinin qlobal müstəvidə artan nüfuzu çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən olan Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində mümkün olmuşdur. Tamamilə əminəm ki, cənab İlham Əliyevin parlaq liderliyi ilə qarşıdakı illərdə ölkəmizin uğurları daha da artacaq.

Reallıq budur ki, post-COVID dövründə formalaşmaqda olan yeni dünya düzənində Çin aparıcı qüvvələrdən biridir. Təqdirəlayiq haldır ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Çin Xalq Respublikası ilə hərtərəfli əlaqələr qurmuşdur. Ölkələrimiz arasında siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində əməkdaşlıq xüsusilə uğurla inkişaf edir. Azərbaycan və Çin beynəlxalq platformalarda bir-birinin milli maraqları üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdə qarşılıqlı dəstək nümayiş etdirirlər.

Xatırladaq ki, Azərbaycan Prezidenti ÇXR-ə 2015-ci il dekabrın 8-11-də dövlət səfərində olmuşdur. Cənab İlham Əliyev 2019-cu il aprelin 24-27-də keçirilən "Bir kəmər, bir yol" beynəlxalq tədbirində çıxış edərək olduqca dəyərli fikir və mülahizələr səsləndirmiş, maraqlı təklif və tövsiyələr vermişdir.

Yeri gəlmişkən, bu gün planetimizdə digər qlobal güc mərkəzi olan Aİ ilə də Azərbaycanın sıx əlaqələri mövcuddur. Bu əlaqələr qarşılıqlı inam və etimad əsasında davamlı olaraq inkişaf edir. Ölkəmizin ticarət dövriyyəsinin yarısından çoxu məhz Aİ-yə üzv dövlətlərin payına düşür.

Aİ rəhbərliyi (Fransa istisna olmaqla) 44 günlük müharibə dövründə balanslı mövqe tutmuşdur. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesində iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verir. Cənab Ş.Mişelin konstruktiv mövqeyi məmnunluq doğurmaya bilməz.

Sonda bir daha qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan dövlətinin dünyanın ən qüdrətli ölkələri, aparıcı güc mərkəzləri ilə konstruktiv, bərabərhüquqlu əlaqələrinin yaranaraq inkişaf etməsi Prezident İlham Əliyevin xalqımızın və dövlətimizin milli maraqlarına xidmət edən yüksək səriştəli idarəçiliyinin nəticəsidir. Bəli, Azərbaycan dövləti hazırda yüksək inkişaf və tərəqqi yolundadır.

***İlham MAZANLI,***
***Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 4 iyun.- S.4.